Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi və Beynəlxalq Avrasiya Mətbuat Fondu

# “Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında gender əsaslı zorakılığın həlli” layihəsi

Mart - Aprel- May 2017-ci il

**Layihənin adı: Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında Gender əsaslı zorakılığın həlli**

**Həyata keçirən təşkilat: Beynəlxalq Avrasiya Mətbuat Fondu**

1. **Layihənin məqsədi və fəaliyyətlər**

Regionlarda Məcburi köçkün gənclərinin vətəndaş cəmiyyəti quruculuğunda iştirakının dəstəklənməsi layihəsi BAMF-ın Amerika Hökumətinin dəstəyi ilə həyata keçirdiyi növbəti layihələrdəndir. BAMF, 2006-cı ildən regionlarda vətəndaş cəmiyyəti qurumlarının imkanlarının gücləndirilməsi, aztəminatlı insanların sosial-iqtisadi reinteqrasiyasının təmin edilməsi üçün onların məşğulluğunun yaradılması, məcburi köçkünlərin sosial-hüquqi problemlərinin həlli, qadınların, xüsusilə, ərləri başqa şəhər və ölkələrə miqrasiya etmiş, aztəminatlı qadınların peşə vərdişlərinin və bacarıqlarının artırılması ilə onların ailə gəlirlərinin çoxaldılması istiqamətində əhəmiyyətli işlər görmüşdür. Layihələr 2010-ci ildə Amerika Hökumətinin dəstəyi ilə Tərtər rayonunda əsası qoyulmuş Tərtər Peşə Təlim Mərkəzindən idarə edilmiş, mərkəzin təcrübə sahələrindən, metodoloji vasitələrindən istifadə olunmuşdur. ABŞ Dövlət Departamentinin Qaçqınlar və Miqrasiya Bürosu tərəfindən dəstəklənən "Məcburi köçkünlərin reinteqrasiyası ilə məşğul olmaq üçün yerli vətəndaş cəmiyyəti və icma əsaslı təşkilatların potensialınım gücləndirilməsi" layihəsi müharibədən zərərçəkmiş regionlarda qadınların sosial-iqtisadi imkanlarının gücləndirilməsi, peşə bacarıqlarının artırılması üçün vətəndaş cəmiyyəti qurumlarının fəaliyyəti üçün geniş imkanlar yaratmışdır.




Amerikanın Azərbaycandakı səfirliyi tərəfindən maliyyələşdirilən **"Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında Gender əsaslı zorakılığın həlli"** layihəsi 01 Mart tarixindən fəaliyyətə başlamışdır. Layihənin əsas məqsədi qadınları öz hüquqları haqda bilgiləndirmək, erkən nigah və gender bərabərliyinin ictimai müzakirəsi, qadınlara qarşı gender əsaslı zorakılıq hallarının qarşısının alınması istiqamətində tədbirlərin görülməsindən ibarətdir.

**Layihənin icrasının birinci ayı ərzində (mart ayı)**, seçilmiş layihə işçilərinin təyinatı aparıldı,

onların əmək funksiyaları, vəzifə hüquqları və iş prinsipləri izah edildi. Layihədən irəli gələn məsələlərin həlli və fəaliyyətlərin icrası üçün ümumi müzakirələr və təlimatlandırma işləri həyata keçirildi. Layihənin müvəffəqiyyətlə icra edilməsi üçün müvafiq dövlət qurumları ilə əməkdaşlığın yaradılması məqsədi ilə Azərbaycan Respublikası Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komitəsinə, Ailə, Qadın və Uşaq Komitəsinə rəsmi müraciət ünvanlanmış, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri layihənin məqsəd və məramına dair məlumatlandırılmışlar. Bununla yanaşı, Ailə, Qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin yerli idarəsi layihəyə dair bilgiləndirilmişlər.

Layihənin həyata keçirildiyi Tərtər, Ağdam və Füzuli rayonlarında geniş auditoriyanı əhatə etməsi üçün rayon İcra hakimiyyəti strukturlarının rəhbərləri və Beynəlxalq Avrasiya Mətbuat Fondunun əməkdaşları arasında ikitərəfli  müzakirələr keçirilmişdir.





Tərtər rayonunda Peşə Təlim Mərkəzində BAMF əməkdaşları yerli Kənd İcra nümayəndələri ilə görüş təşkil edərək məcburi köçkünlərin yaşadıqları ərazilərdə qarşılaşdıqları sosial, hüquqi problemlər, erkən nigah, boşanma, sənədsiz doğulan uşaqlar ( atanın müəyyən olunması və qeydiyyatı), anadan götürülən uşaqlar və.s kimi məsələlər müzakirə olundu. İcra nümayəndəlikləri qadınların təhsil almasını, onların peşə bacarıqlarının artırılmasını, ictimai fəaliyyətini dəstəklədiklərini bildirmiş və bu məqsədlə keçirilən təlimlərin xüsusi əhəmiyyətini bildiriblər.

Bundan başqa , BAMF əməkdaşları Ağdam rayonunda Birinci Dörd yol məcburi köçkün qəsəbəsinə səfər edərək Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin sədri və Ağdam  rayon Təhsil şöbəsinin müdiri Mətanət Misirxanova  ilə görüşərək layihənin məqsədi və  fəaliyyət planı haqqında müzakirələr aparmışdırlar. Qadınların problemləri, günün ən aktual məsələləri müzakirələrin əsas mövzusu olub.





Nəzərdə tutulan birinci ay ərzində BAMF əmkdaşları Füzuli rayonuna səfər edərək İcra strukturları ilə görüşüb layihənin fəaliyyət planı haqqında müzakirələr aparıb, eləcə də  məcburi köçkün ailələrinin daha sıx yaşadığı qəsəbələrə səfər edərək, burada yaşayan qadınlarla görüşlər keçirmiş, layihənin məqsəd və məramı haqda benefisiarlara ətraflı məlumat verilmişdir.

Hədəf rayonlarda, Tərtər, Ağdam və Füzulidə məcburi köçkünlərin kompakt yaşadığı qəsəbələrdə layihədən faydalananları təyin etmək üçün hər bir rayondan 100 olmaqla 300 Yaş, Gender və Müxtəliflik uçotuna dair (AGDM)  sorğular keçirildi. Sorğuda iştirak edənlərin arasında layihəyə cəlb olunacaq aktiv qadınların siyahısı dəqiqləşdirildi.





**Nəzərdə tutulan ikinci ay ərzində** Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında Gender əsaslı zorakılığın həlli layihəsi çərçivəsində Tərtər, Ağdam, Füzuli rayonu üzrə yerli İcra nümayəndəlikləri kişilər və qadınlarla hər rayon üzrə 2 təlim olmaqla ümumi 3 təlim və 3 ictimai görüş keçirilmişdir.

**Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında Gender əsaslı zorakılığın həlli layihəsi çərçivəsində Tərtər, Ağdam və Füzuli rayonları üzrə Qadın hüquqları ilə bağlı ictimai görüşlər**

Aprel ayı ərzində **Tərtər rayon Peşə təlim mərkəzinin konfrans zalında** ümumilikdə 48, 11 qadın və 37 kişi olmaqla, Ağdam rayonunda Birinci Dörd yol qəsəbəsində Mədəniyyət evində 27 kişi, 33 qadın olmaqla, ümumilikdə 60 yerli icra nümayəndəlikləri, psixoloq, həkim, müəllim, polis






əməkdaşlarının iştirakı ilə ictimai görüş keçirilmişdir. Görüş zamanı iştirakçılar qrup işlərinin yerinə yetirilməsi üçün 9 stol ilə qruplara bölünmüşdür. Qadınlar və kişilər ayrı-ayrı stollarda qruplaşmışdılar. Görüş təlimçi Sevda Məmmədli və BAMF prezidenti Umud Mirzəyevin də iştirakı ilə həyata keçirilmişdir.

Görüşün ilk saatında Gender haqqında ümumi məlumat başlığı altında cins və genderin fərqləri, genderə təsir, gender stereotipləri mövzusunda müzakirələrdən sonra iştirakçılar arasında "Özümü kim hesab edirəm?" qrup işi keçirildi. Növbəti vaxtlarda isə rayonlar üzrə zorakılığa məruz qalmış, boşanmaların statistik məlumatları dinlənilmiş və iştirakçılar da məlumatlandırılmışdır. "Zorakılıq nədir?" Zorakılığın növləri, erkən nigah zorakılığın bir növü kimi müzakirə olundu. Ailə- məişət zorakılığını əks etdirən səhnəcik təşkil olundu və rayon polis şöbəsinin əməkdaşları bu kimi

hallarda qanun çərçivəsində necə davranacaqları haqqında məlumat verdilər. Növbəti saatlarda isə gender əsaslı zorakılıq müzakirə olundu və zorakılığın səbəbləri, o cümlədən də zorakılığın aradan qaldırılması üçün hansı işlər görülə bilər başlığı altında qrup işi keçirildi. Qrup işlərinin təhlilindən alınan nəticəyə görə qadınlar kişilərə nisbətən zorakılıq səbəblərini və qarşısını almaq üçün tədbirləri daha detallı açıqlamışlar. Qruplardan biri məişət zorakılığının səbəblərini sərhədyanı bölgələrə daha az diqqət ayrılması və investisiya qoyulmamasında görür, digər bir qrup isə gənc ailələrin mənzillə təmin olunmamasında və gənc ailələrə ipoteka verilməməsində görür. Əksəriyyət qrup və iştirakçılar isə məişət zorakılığını işsizlik, savadsızlıq, erkən nigahda görür.

Məişət zorakılığının qarşısını alınması ilə bağlı planlamada isə kişilər daha çox maarifləndirmə, gənclərə verilən psixoloji dəstək və təhsildən yayınmanın qarşısını alınması, ictimai qınaq, sosial şəbəkələrdən səmərəli və məqsədli şəkildə istifadə etmək, məktəbdə valideynlərlə görüşmək və söhbətlər aparmaq, hüquq mühafizə orqanlarının və şagirdlərin mütəmadi görüşünün keçirilməsindən bəhs etdilər. Boşanmış qadınların qarşı tərəfdən maddi asılılığının aradan qaldırılması üçün yaşayış yeri ilə təmin edilməsi və boşanmış ailələrə psixoloji dəstək məqsədi ilə mərkəzin yaradılmasını, çox uşaqlı anaların təqaüdə çıxmasında güzəştlərin tətbiq edilməsi, məişət zorakılığının qarşısını alınması üçün qadınların liderlik etdiyi qrup tərəfindən irəli sürülmüşdür. Bununla yanaşı məktəb dərsliklərində zorakılıqla bağlı dərslərin tədris olunması və ailə quran cütlüklərin maarifləndirilməsi ideyası da irəli sürülmüşdür.

Digər bir qrup isə gender bərabərliyini ailə daxili münasibətlərdə qəbul etmir və qeyd edir ki, milli dəyərlərlə yaşayan ailələri nümunə kimi təbliğ etmək lazımdır, ailə daxili münasibətləri korlaya biləcək kənar fəaliyyətlərin məhdudlaşdırılmasını təklif edir.

**Qadınlar, İcma və Sosial Ədalət: Məcburi Köçkün İcmalarında Gender əsaslı zorakılığın həlli layihəsi çərçivəsində Tərtər, Ağdam və Füzuli rayonları üzrə Qadın hüquqları ilə bağlı təlimlər**

Nəzərdə tutulan ayın ikici yarısında **Tərtər rayon Peşə təlim mərkəzinin konfrans zalında, Ağdam rayon Birinci Dörd yol qəsəbəsinin Musiqi evinin akt zalında, Füzuli rayonu Zobcuq iki qəsəbəsində hər birində** 25-29 ***məcburi köçkün qadınların*** iştirakı ilə Qadın hüquqları ilə bağlı ümumi 3 təlim keçirildi.



Təlimçi Sevda Məmmədlinin rəhbərliyi ilə gender haqqında ümumi məlumat verildi, cins və genderin fərqləri haqqında praktiki tapşırıqlar həll edildi. Təlimin əvvəlində təlim sözlüyü vəsaiti iştirakçılar arasında paylandı, təlim zamanı sıx-sıx işlədilən sözlərin mənaları ilə tanışlıq oldu. Vəsait əsasında iştirakçılar gender bərabərliyi ilə bağlı beynəlxalq öhdəliklər və Azərbaycan respublikasının gender siyasəti ilə bağlı bilgilərlə tanış oldular.

Daha sonra qadınlar və kişilər arasındakı iş bölgüsünü əks etdirən tapşırıqlar həll edildi. Tapşırıq gün ərzində qadınların hansı işlərlə məşğul olduğunu, neçə saat produktiv və neçə saat reproduktiv işlə məşğul olduğunu öyrənməkdir. Tapşırıqların təhlilinə əsasən təlimdə iştirak edən qadınların

böyük əksəriyyəti gün ərzində minimum 5, maksimum 10 saat produktiv işlə məşğul olduqlarını bildiriblər.

Növbəti praktiki çalışma isə Qaydalar, qadağalar və gözləntilər idi. Məcburi köçkün qadınların qeyd apardığı tapşırıqları təhlil edərkən qadınlara tətbiq edilən qadağaların daha çox və çeşidli olduğu nəzərə çarpdı. Belə ki, qadınlara günlük həyatlarında geyimləri, davranışları, texnologiyadan istifadə ilə bağlı həyat yoldaşları, ailə üzvləri və cəmiyyət tərəfindən qadağaların qoyulması müəyyən edildi. Qaydaların isə daha çox ailə-məişət, ailə və uşağa qayğı, təlim və tərbiyə işlərində tətbiq olunduğu aşkar olundu. Qadınlardan gözləntilər isə evi təmin edə bilmə və ailə- məişət zəminindəki şəxsi keyfiyyətlərdir.

Təlimin sonunda Erkən nigahla bağlı video çarx göstərildi. Real və formal bərabərliklə bağlı faktlar haqqında söhbətlər aparıldı, kənd məktəbi və "Rənanın arzusu" praktiki çalışmaları həll edildi.

**Layihənin üçüncü ayında (May),** Məcburi köçkün qadınlar üçün 3 kompyuter təlimi və yerli icra hakimiyyətləri, qadın dəstək qruplarının iştirakı ilə hədəf 3 rayonun hər birində şəhər görüşləri keçirildi.

Kompyuter təlimlərinin əsas məqsədi qadınların internetdən istifadə bacarıqlarını artırmaq, məcburi köçkün qadınları internetdən istifadə etməyə cəlb etmək və öz texniki suallarına cavab tapmaq üçün sosial şəbəkənin imkanlarından istifadə qaydalarını izah etmək idi.

Bundan başqa, şəhər görüşlərinin əsas mövzusu isə, üç ay ərzində layihə çərçivəsində görülən işləri müzakirə etmək və yaradılan qadın dəstək qruplarını ictimaiyyətə təqdim etmək idi. Şəhər görüşlərində əsas müzakirə mövzuları isə qadınlarla bağlı məsələlərin müzakirə edilməsi və bu məsələlərlə bağlı fikir və təkliflərin toplanması idi.

**"Qadınlar İcma və Sosial Ədalət: Məcburi Köçkün icmalarında gender əsaslı zorakılığın müzakirəsi" layihəsi çərçivəsində Tərtər, Ağdam, Füzuli rayonlarında keçirilən kompyuter təlimləri.**



May ayının əvvəlində hədəf rayonların hər birində 3 dəfə olmaqla, 35-56 yaş arası Tərtər rayonundan 14 qadının, Ağdam rayonundan 15 qadının və Füzuli rayonundan 15 qadının iştirakı ilə kompyuter təlimləri keçirildi. Təlimçi Sevda Məmmədli təlim iştirakçılarına bir neçə sualla müraciət etdi: İnternetdən necə istifadə edirsinizmi? Oradan öz texniki suallarınıza necə cavab tapırsınız? Sosial mediaya çıxışınız varmı və sosial mediadan hansı məqsədlər üçün və nə zaman istifadə edirsiniz?

Müzakirələr zamanı məlum oldu ki, yalnız çox az sayda qadın internetdən iş yerində istifadə edir, qalanları isə vaxt azlığı və marağın olmaması səbəbindən internet istifadəçisi deyil. Bu qadınlara təlimlər zamanı gmail hesabı, feysbuk və instaqram səhifələri yaratmaq öyərdildi.

Bundan başqa iştirakçılara gələcəkdə karyeralarına yararlı ola biləcək dropboks və linkedin kimi zəruri proqramlar haqqında da məlumat verildi.

Təlimin növbəti saatlarında sosial medianın ailə daxili münasibətlərə təsiri və sosial medianın bizi necə dəyişə biləcəyi mövzusunda müzakirələr aparıldı.



Bundan başqa, debat zamanı qadınlar arasında uşaqların hesablarına nəzarət etmək, şəxsi heaba müdaxilə etməyə görə məsuliyyətin olub olmadığı ilə bağlı müzakirələr oldu.

Nəticədə, bir qrup qadın uşaqların hesabının daima nəzarətdə olmasının vacibliyini qeyd etdi, digər qrup isə əksinə bu cür hərəkətlərin etibarlılığa xələl gətirəcəyini bildirdi. Ardınca qeyd edildi ki, ailə üzvləri arasında etibar yoxdursa münasibətlər zərər çəkir.

**“Qadınlar İcma Sosial Ədalət: Məcburi Köçkün icmalarında gender əsaslı zorakılığın müzakirəsi” layihəsi çərçivəsində Tərtər, Ağdam və Füzuli rayonlarında keçirilən Şəhər Görüşləri**



May ayının sonunda, hədəf rayonlarda qadın dəstək qrupları və yerli icra hakimiyyəti orqanlarının iştirakı ilə ümumilikdə üç şəhər görüşü keçirildi. Şəhər görüşlərində Füzuli rayonunda ümumilikdə 75, Tərtər rayonunda 49, Ağdam rayonunda isə 47 nəfər iştirak etdi.

Tədbir BAMF prezidenti Umud Mirzəyevin salamlama nitqi ilə başladı. Təlimçi Sevda Məmmədli görüşün moderatorluğunu etdi. İcra hakimiyyəti orqanının rəsmisi “Rayon haqqında məlumat və regiondakı məişət zorakılığına qarşı görülən işlər” mövzusunda nitq söylədi. Layihənin regional koordinatoru layihə çərçivəsində görülən işlər haqqında təqdimat etdi. Qadın Resurs Mərkəzinin rəhbəri mərkəzin əsas məqsədi haqqında qısa məlumat verdi.

Bundan başqa, görüşün birinci mərhələsində, dini icma rəhbəri, nikah idarəsinin məsləhətçisi, bələdiyyə sədri, həmçinin polis idarəsinin nümayəndəsi icmadakı gender əsaslı zorakılıq və qadın hüquqlarının müdafiəsi haqqında məlumat verdilər.




Növbəti saatlarda hədəf rayonların hər birində Qadın Dəstək Qrupları təqdim olundu. Qadın Dəstək Qruplarının rəhbərləri öz fəaliyyət planlarını və təkliflərini görüş iştirakçılarına təqdim etdilər. Bundan başqa, qadın bələdiyyə sədri və məktəblərin qadın direktorları Qadın Dəstək Qruplarına öz dəstəklərini göstərdilər.

Qadın Dəstək Qrupları ilə yerli icra hakimiyyəti orqanları arasında gedən müzakirələr zamanı qadın dəstək qruplarının nümayəndələri bələdiyyələrin daxilində Qadın Krizis Mərkəzlərinin formalaşdırlmasını təklif etdilər. Qadın Krizis Mərkəzi

qadınlara ailə daxili münaqişə və zorakılıqdan müdafiə olunmaq üçün kömək etməlidir. Bundan başqa, eyni zamanda Qadın Krizis Mərkəzləri polis müdaxiləsinədək ailə daxili zorakılığın qarşısını ala bilər.

## 2. Layihə iştirakçıları, benefisiarlar və ya hədəf qrupları

Layihənin benefisiarları Layihənin planında nəzərdə tutulduğu kimi məcburi köçkün qadınlar, kişilər, rayon icra strukturu nümayəndəlikləri və yerli icmalardır. Layihədə nəzərdə tutulduğu və donorla razılaşdırıldığı kimi benefisiarlar müəyyən olunmuş, hər bir regionunda məcburi köçkün icmalarında qadınlar arasında Yaş, gender, müxtəlifliyin tədqiqi sorğusu (AGDM) üzrə benefisiarları təyin etmək üçün Tərtər, Ağdam, Füzuli rayonlarında 16-65 yaş arası qadınlarla 100 sorğu keçirilmişdir.

***Tərtər*** rayonu üzrə sorğuda iştirak edən qadınların 67% orta yaş və yaşlıdır, 33% gənclər təşkil edir. Sorğuda iştirak edən qadınların 71%  işsiz, 15% pensiyaçı, 14% təhsillidir.

**Cədvəl.1.**

| | Gənc | Orta yaşlı | Yaşlı | Ümumi |
|---|---|---|---|---|
| **İşsiz** | 26/ 40% | 32/ 49% | 7/ 11% | 65 |
| **Təqayüdçü** | 0% | 0% | 58% | 14 |
| **Təhsilli** | 5/38% | 4/31% | 4/31% | 13 |

**N100**

**Diaqram.1.**










Tərtər rayonu üzrə Evoğlu, İsmayılbəyli yol ayrıcı,  Şıxarx, Buruc, Qarağacı kəndi, Tərtər rayon Elman Səfərov küçəsində Umudlu kənd Ağdam, Kəlbəcər məcburi köçkünləri ilə AGDM sorğu keçirilmiş və 29% qadın könüllü olaraq təlimlərə qatılmaq üçün qeydiyyata alınmışdır.

***Ağdam*** rayon üzrə isə Birinci Dörd yol qəsəbəsində məcburi köçkün qadınlarla sorğu keçirilmiş və 23% qadın könüllü olaraq təlimlərə qatılmaq üçün qeydiyyata düşmüşdür.
Birinci dörd yol qəsəbəsində sorğuda iştirak edən qadınların 38 % gənc, 62%  yaşlı və orta yaşlı təşkil edir.  Bundan əlavə, sorğuda iştirak edən qadınların 68%  işsiz, 5%  pensiyaçı, 27% təhsillidir.

**Cədvəl.2.**

| | Gənc | Orta yaş | Yaşlı | Ümumi |
|---|---|---|---|---|
| **İşsiz** | 24/ 39% | 32/ 52% | 5/ 9% | 61/ 68% |
| **Təqayüdçü** | 0 | 0 | 5% | 5/ 5% |
| **Təhsilli** | 11/46% | 8/33% | 5/21% | 24/ 27% |

**N100**

**Diaqram. 2.**




**<u>Füzuli rayonu</u>** üzrə isə İkinci Zobcuq qəsəbəsində məcburi köçkün qadınlarla sorğu keçirilmiş və 31% qadın könüllü olaraq təlimlərə qatılmaq üçün qeydiyyata düşmüşdür. İkinci Zobcuq qəsəbəsində sorğuda iştirak edən qadınların 39 % gənc, 61% yaşlı və orta yaşlı təşkil etmişdir. Sorğuda iştirak edən qadınların 45% işsiz, 2% təqayüdçü, 52% təhsilli olduğu müəyyən edilib.

**Cədvəl.3.**

| | **Gənc** | **Orta yaşlı** | **Yaşlı** | **Ümumi** |
|---|---|---|---|---|
| **İşsiz** | 18\46% | 14\36% | 7\18% | 39\45% |
| **Təqayüdçü** | 0 | 1/5% | 1/5% | 2\2% |
| **Təhsilli** | 12\27% | 18\40% | 15\33% | 45\52% |

**N100**
**Diaqram.3.**




## 3. Layihə həyata keçirilməsinin nəticələri

*<u>Nəzərdə tutulan dövr ərzində hansı nəticələr əldə olunub?</u>*

Nəzərdə tutulan dövr ərzində, Mərkəzi Tərtər rayonunda olması nəzərdə tutulan Qadın Dəstək qruplarının yaradılması nəzərdə tutuldu. Mərkəzi Tərtər olmaqla Qadın Resurs Mərkəzi yaradıldı və qaynar xətt aktivləşdirildi. Qadın Resurs Mərkəzinin əsas fəaliyyət planı qadınlara hüquqi yardıların göstərilməsidir.
Tərtər rayon üzrə Yaş, gender, müxtəlifliyin tədqiqi üzrə sorğuda iştirak edən qadınların 29%-i, Ağdam rayon, Birinci dörd yol qəsəbəsi üzrə 26%, Füzuli rayon, Zobcuq iki qəsəbəsi üzrə 25% təlimlərdə iştirak etmişdir. AGDM sorğunun nəticələrinə əsasən, sorğuda iştirak edən 20% qadın Tərtər üzrə, 16 % qdın Ağdam üzrə, 6% qadın Füzuli üzrə yaşadıqları və işlədikləri yerdə zorakılığa məruz qaldıqlarını etiraf ediblər.

Məcburi köçkün qadınlar zorakılığı necə anlayır.

| | Physical violence | Psychological violence | Sexual violence | Economical violence |
|---|---|---|---|---|
| **Tartar** | 58% | 27% | 8% | 10% |
| **Agdam** | 49% | 20% | 10% | 21% |
| **Fuzuli** | 67% | 19% | 3% | 11% |










Qadınların iş fəaliyyətini əngəlləyən faktorlar

| | Gender | Age | Education | Disability |
|---|---|---|---|---|
| **Tartar** | 12% | 4% | 78% | 6% |
| **Agdam** | 16% | 2% | 75% | 2% |
| **Fuzuli** | 12% | 2% | 77% | 9% |










Layihənin ikinci ayında, ümumilikdə 70 nəfər qadın və 150 qadın ictimai müzakirələrdə isə ümümi 150 kişi və qadın iştirak edib. Gender məsələləri, Beynəlxalq qanunvericilikdə və Azərbaycan Respublikası Konstitusiyasında qadın hüquqları, gender əsaslı zorakılıq və s. məsələlər təlimlər zamanı və ictimai müzakirələr zamanı hədəf rayonların qadın qruplarına çatdırıldı.
Qadın Resurs Mərkəzinə rəhbər təyin edildi və qaynar xətt aktivləşdirildi.
Layihənin üçüncü ayında, ümumilikdə 42 qadına kompyuter bilikləri aşılandı, 10 qadın isə təlimlər zamanı Sosial Mediada hesab yaradıldı.
Qadın Dəstək Qrupları da daxil olmaqla 172 qadın və kişi Şəhər Görüşlərində iştirak etdi. Qadın Dəstək Qrupları ilə yerli icra hakimiyyəti orqanları arasında birbaşa ünsiyyət formalaşdırıldı.
Layihə çərçivəsində paylaşılan xəbərlər isə 2000 dəfə oxunulub.

Ümumilikdə, hər üç regionda 242 qadın və kişi cəlb olunub.
Layihənin davamlılığı üçün mərkəzi Tərtərdə olmaqla layihə çərçivəsində yaradılan Qadın Resurs Mərkəzinə BAMF-ın öz daxili hesabları ilə hüquqşünas təyin edilməsi nəzərdə tutulub.

**4. Layihənin icrası zamanı qarşıya çıxan əngəllər**

Nəzərdə tutulan dövr ərzində bayram münasibəti ilə 9 gün qeyri-iş günü olması layihənin gedişatını ləngitsə də layihə koordinatorları yerli icra nümayəndələri ilə sıx əməkdaşlıqlar quraraq boş günləri kompensasiya etdi.

Regionlarda müxtəlif yerlərdə yaşayan məcburi köçkün icmalarının maksimum əhatə olunması üçün AGDM tədqiqi üzrə sorğunun icrası çox zaman aldığı üçün layihənin icrası nisbətən ləngimiş, lakin məcburi köçkün icmaların yaşadığı qəsəbələrə məsul olan icra nümayəndələri və Ailə, qadın, uşaq problemləri komitəsinin əməkdaşlarının yardımı ilə əngəllər aradan qaldırılmış, sorğuların icrası uğurla başa çatdırılmışdır.

**5. Maliyyə, Büdcə əməliyyatları**

Layihənin fevral ayı ərzində başlanılması nəzərdə tutulsa da, layihənin icrası mart ayından başlanılmışdır və bu tarixdən etibarən layihə üzrə nəzərdən tutulan maliyyənin xərclənməsi həyata keçirilmişdir. Layihə müddəti 3 ay olmasına baxmayaraq İlkin mərhələdə, yəni ilk iki ay üçün layihə üzrə nəzərdə tutulan vəsaitin 50% hissəsi köçürülmüş və maliyyə tam xərclənmişdir.

Maliyyə vəsaiti əsasən işçi heyətin əmək haqları, zəruri avadanlıqlar alınması, ( kompüter, və texnika ) ofiz ləvazimatları, nəqliyyat xərcləri, buklet və broşur çapı, kofe və çay fasiləsi, təlim materiallarının çap olunması (banner, buklet),və.s üçün sərf olunmuşdur.

Layihə ilkin fazasında müəyyən olunmuş fəaliyyətlər tam olaraq yerinə yetirilsə də, bəzi fəaliyyətlər üzrə xərclər maliyyənin yekunlaşması səbəbindən həyata keçirilməmişdir. Bu xərc maddələri üzrə (təlimçilərin qonorarı, gender mütəxəssisinin xidmət haqları, sığorta ödənişləri və.s) köçürmələrin növbəti maliyyə əməliyyatının aparılması zamanı yerinə yetirilməsi nəzərdə tutulur.

**6. Layihə dəstəyi və Kommunikasiya.**

- *Hansı kütləvi informasiya vasitələri layihə fəaliyyətlərini əhatə etməsinə cəlb olunmuşdur?*

Layihə fəaliyyəti ilə bağlı bütün məlumatlar "Avrasiya Gündəliyi Analitik İnformasiya Portalı"nda və digər mətbuat orqanlarında yayımlanıb.

Tədbirlərin haqqında mətbuatda yayımlanan məlumatların linkləri:

İngiliscə yayımlanan

**1.IEPF's projects funded by Embassy of USA in Azerbaijan launch.**
http://iepf-ngo.org/?lang=en&b=news&cat=20&id=1582

Azərbaycan dilində yayımlananlar

**1.Beynəlxalq Avrasiya Mətbuat Fondu regional layihələrini uğurla davam davam etdirir – Foto**

http://eurasiadiary.com/az/news/society/123750-bamf-berde-terter-agdam-ve-fuzulide-layihelerin-icrasini-ugurla-davam-etdirir

**2. Beynəlxalq Avrasiya Mətbuat Fondu regional layihələrini davam etdirir – Foto**
http://tele-inform.com/?p=29779#more-29779

**3.Beynəlxalq Avrasiya Mətbuat Fondu regional layihələrini uğurla davam davam etdirir – Foto**

http://qaziler.az/news.php?id=44897#.WN33sG_yjIV

**4. BAMF Tərtər, Bərdə, Ağdam, Füzuli rayonlarında həyata keçirdiyi layihələrin birinci ayının yekunlaşması ilə bağlı təqdimat keçirib.**

http://eurasiadiary.com/az/news/society/126493-bamf-terter-berde-agdam-fuzuli-rayonlarinda-heyata-kecirdiyi-layihelerin-birinci-ayinin-yekunlasmasi-ile-bagli-teqdimat-kecirib

**5. ABŞ-ın Azərbaycandakı Səfirliyinin rəsmiləri Beynəlxalq Avrasiya Mətbuat Fondunun Tərtər ofisini ziyarət edib**

http://turkustan.info/2017/04/17/abs-in-az%C9%99rbaycandaki-s%C9%99firliyinin-r%C9%99smil%C9%99ri-beyn%C9%99lxalq-avrasiya-m%C9%99tbuat-fondunun-t%C9%99rt%C9%99r-ofisini-ziyar%C9%99t-edib-fotolar/

**5. Layihənin monitorinq və dəyərləndirilməsi.**

Nəzərdə tutulan dövr ərzində layihənin monitorinqi ilə bağlı ciddi işlər görülmüşdür. Layihənin rəhbəri həyata keçirilən bütün tədbirlərdə birbaşa iştirak etmiş, layihənin icrası və icra zamanı qarşıya çıxan əngəllər haqqında həftəlik hesabatlar hazırlanıb layihə rəhbərinə təqdim olunmuşdur.

Bundan əlavə, Tılimlər zamanı BAMF prezidenti Umud Mirzəyev və ABŞ səfirliyi əməkdaşları Tərtərdə keçirilən təlimlərdə iştirak etmişdir.






5 iyun tarixində BAMF-ın Bakı ofisində BAMF prezidenti, təlimçilər və layihə koordinatorlarının iştirakı ilə layihənin yekun qiymətləndirilməsi keçirilmişdir.






Hazırladı: **Proqram departamenti**